Ədəbiyyat qəzeti



31 iyul / 2021




# "Şəhidlik zirvəsi - Qobustan şəhidləri"

"Şəhidlik zirvəsi - Qobustan şəhidləri" adlı yeni kitab işıq üzü görüb. Kitab tanınmış yazıçı-şairə Mətanət Ulu Şirvanlının şəhidlər haqqında yazdığı növbəti publisist təqdimatıdır.

Kitab Birinci və İkinci Qarabağ döyüşlərindən bəhs edir.

Müəllif kitabda erməni cəlladları tərəfindən torpağımızda törədilən cinayətlərdən bəhs etmiş, 30 illik vətən həsrətini qələmə almışdır.

Qarabağı canı-qanı bahasına qoruyan qobustanlı döyüşçülərin xatirəsini yad edən yazıçı onların taleyini və döyüş yolunu elegiya janrında oxuculara təqdim etmişdir.

Kitabda "Heç kim unudulmur, heç kim yaddan çıxmır" başlığı altında SHXÇDX-nin Qobustan rayon bölməsinin rəisinin müavini Şamil Əzizov, yazıçı-dramaturq Seyran Səxavət, 525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, AYB-nin şöbə müdiri Sayman Aruz və yazıçı dramaturq Elçin Hüseynbəyli şəhidlərimiz haqqında fikirlərini qeyd etmiş, vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda igidlik göstərən şəhidlərimizi hörmətlə yad etmişlər.

Vətən bölünməz, şəhidlər ölməz! İllər keçəcək, bizim kimi gələcək nəsillər də şəhidlərimizi minnətdarlıq hissi ilə yad edəcəklər. Heç kim unudulmur, heç kim yaddan çıxmır.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.